“Qeyri-rezidentin Azərbaycan Respublikasından əldə etdiyi gəlirə ödəmə mənbəyində beynəlxalq müqavilədə nəzərdə tutulmuş azadolma və ya aşağı dərəcənin tətbiq edilməsi haqqında ərizə (DTA 03-Forması)”


elektron xidmətinin

İstifadəçi təlimatı

“Qeyri-rezidentin Azərbaycan Respublikasından əldə etdiyi gəlirə ödəmə mənbəyində beynəlxalq müqavilədə nəzərdə tutulmuş azadolma və ya aşağı dərəcənin tətbiq edilməsi haqqında ərizə (DTA 03-Forması)” elektron xidməti üzrə müraciət ərizəsinin göndərilməsi üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya və yoxlama vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:


- Asan İmza;
- SİMA Token;
- SİMA imza.

Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.



Sonra “Qeyri-rezidentin Azərbaycan Respublikasından əldə etdiyi gəlirə ödəmə mənbəyində beynəlxalq müqavilədə nəzərdə tutulmuş azadolma və ya aşağı dərəcənin tətbiq edilməsi


haqqında ərizə (DTA 03-Forması)” elektron xidməti üzrə müraciət ərizəsini təqdim etmək üçün “Yeni ərizə” xanasına ərizənin adı daxil edilir. Axtarış nəticəsində ekranda göstərilən müvafiq ərizə forması seçilir və yaxud “Hamısına bax” düyməsi vasitəsilə açılan pəncərədən də müvafiq ərizə forması seçilə bilər.




Əgər istifadəçi tərəfindən daha əvvəl bu ərizə forması doldurularaq qaralamada saxlanmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istədikdə ekrandakı qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən **“Davam et”** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və düzəliş imkanı mümkün olur.




Yeni ərizə forması yaratmaq istədikdə isə, **“Yeni ərizə yarat”** düyməsi sıxılır.




Açılmış ərizə formasında “Siyahıya qayıt” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi seçilməklə ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, “Əsas səhifəyə qayıt” seçilməklə “Ərizələr” moduluna qayıtmaq, “Bəli, yadda saxlanılsın” düyməsi seçilməklə isə yaradılmış ərizə formasını yadda saxlamaq mümkündür.







“Ümumi məlumatlar” bölməsi

Ərizə formasında qeyri-rezidentin fiziki və ya hüquqi şəxs olmasından asılı olaraq müvafiq seçim edilir və seçimə uyğun olaraq fiziki şəxsin soyadı, adı, ata adı və ya hüquqi şəxsin adı qeyd olunur.






Sonra qeyri-rezidentin rezidenti olduğu dövlət üzrə VÖEN və ünvan məlumatları müvafiq xanalara daxil edilir.




“Digər məlumatlar” bölməsi


Poçt əlaqəsinin aparılması üçün “Rezidentlik” ünvanı və ya “Digər” ünvan seçilə bilər. Rezidentlik ünvanı üzrə seçim edilərsə, bu zaman ünvan məlumatları “Ümumi məlumatlar” bölməsində qeyd edilmiş ünvan məlumatlarına uyğun olaraq avtomatik əks olunur.




Digər ünvan üzrə seçim edildikdə isə, “Digər ünvan” xanası üzrə ünvan məlumatları daxil edilir.




Daha sonra “Əlaqə vasitələri” bəndi üzrə ilk öncə “Mobil telefon nömrəsi” seçimi edilib mobil telefon nömrəsi daxil edildikdən sonra **“Yoxla”** düyməsi sıxılır və açılan pəncərəyə qeyd edilən telefon nömrəsinə göndərilmiş təsdiq kodu daxil edilərək **“Təsdiqlə”** düyməsi ilə təsdiqlənir.






Qeyd: Əlaqə məlumatları hissəsində mobil telefon nömrəsi daxil edilməmiş digər əlaqə məlumatlarının daxil edilməsi mümkün deyildir.

Ərizə forması şəxsin səlahiyyətli nümayəndəsi tərəfindən doldurulduğu halda “Digər məlumatlar” bölməsində həmin səlahiyyətli nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd üzrə “FİN” və “Şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi" barədə məlumatlar ərizəyə əlavə edilərək “Axtar” düyməsi sıxılır.





Qeyri-rezidentə gəlir ödəyən şəxs bölməsi


Qeyri-rezidentə Azərbaycan Respublikasında gəlir ödəyən şəxs haqqında məlumatın əlavə edilməsi üçün “VÖEN/Adı” xanası üzrə VÖEN və ya ad məlumatı daxil edərək axtarış nəticəsində əks olunan şəxs üzrə seçim edilərək “Əlavə et” düyməsi sıxılır.






Gəlir və vergi bölməsi

Bu bölmədə əldə ediləcək gəlir və tutulacaq vergi barədə məlumatlar əks olunur. İlk növbədə “Gəlirin növü” xanasından müvafiq seçim edilir.




“Gəlir növü” xanası üzrə “Fəaliyyətini daimi nümayəndəlik vasitəsilə həyata keçirməyən qeyri-rezidentin göstərdiyi xidmətlərdən gəlir” seçmiş şəxslər “Azərbaycan Respublikasının ərazisindəki fəaliyyətim daimi nümayəndəlik yaratmır” çekboksunu işarələyir.




Gəlirin ödənilməsinə əsas verən müqavilə məlumatları

Gəlirin ödənilməsinə əsas verən müqavilənin və ya hər hansı digər sənədin tarixi və nömrəsi qeyd edilir.




Qeyd: Müqavilənin tarixi vergi ödəyicisinin qeydiyyat tarixindən əvvəl ola bilməz.

Daha sonra işlərin və ya xidmətlərin göstərilməsi dövrünün başlanğıc və son tarixləri əks etdirilərək həmin işlərin və ya xidmətlərin göstərilməsi ilə bağlı ödənişlərin aparılacağı (aparıldığı) dövr məlumatları qeyd olunur.




Qeyd: Ödənişlərin aparılacağı(aparıldığı) dövr cari rübün başlanğıc tarixindən növbəti ilin sonuna qədər seçilə bilər.


Gəlirin ödəniləcəyi valyutanın kodu, həmin valyuta ilə məbləği və gəlirin manatla məbləği qeyd edilir.




Gəlirdən tutulmalı olan verginin müvafiq olaraq Azərbaycan Respublikasının daxili qanunvericiliyinə əsasən dərəcəsi və beynəlxalq müqavilənin müddəalarına əsasən həmin gəlirdən tutulmalı verginin dərəcəsi qeyd edilir:




Sonra Azərbaycan Respublikası ilə beynəlxalq müqavilə bağlamış dövlətin həmin müqavilədə azadolma, yaxud aşağı vergi dərəcəsini nəzərdə tutan müvafiq maddənin nömrəsi qeyd edilir.




Daha sonra ərizəyə təsdiqedici sənədlərin əlavə edilməsi məqsədi ilə “Sənədin növü” xanası üzrə əlavə ediləcək sənədə uyğun müvafiq seçim edilir və sənədlər ərizəyə əlavə olunur.





Qeyd: Ərizə səlahiyyətli nümayəndə tərəfindən doldurulduqda həmin səlahiyyətli nümayəndənin şəxsiyyətini təsdiq edən sənədin məlumatları (səlahiyyətli nümayəndənin səlahiyyətlərini təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti ərizəyə əlavə olunmalıdır) ərizəyə əlavə olunmalıdır.


Sonra ərizənin göndərilməsi üçün aktivləşən “İmzala və göndər” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.




İmzala və göndər düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.



“İmzala və göndər” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi seçildikdə yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıdılır.



“İmtina” düyməsini sıxdıqdan sonra ekranda əks olunana “Sil” düyməsini sıxmaqla ərizə forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.



Ərizə imzalanaraq göndərildikdən sonra açılan pəncərədə daxil edilmiş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdu

Ərizə

"Qeyri-rezidentin Azərbaycan Respublikasından əldə etdiyi gəlirə ödəmə mənbəyində beynəlxalq müqavilədə nəzərdə tutulmuş azadolma və ya aşağı dərəcənin tətbiq edilməsi haqqında" Ərizə (DTA-03 forması)

Endir

Qeydiyyat nömrəsi 2616010036979800 | Qəbul olundu 08.10.2026 saat 11:41

Qeyri-rezident şəxs haqqında ümumi məlumat

Şəxsin növü	Hüquqi şəxs
Qeyri-rezidentin tam adı	Gravel holding

Poçt əlaqəsinin aparılması üçün ünvan

Ünvan növü	Digər
Ünvan	AZ1011 Bakı şəhəri, Yasamal rayonu, Mirəli Seyidov

Rezidentlik dövləti və ünvanı

VÖEN	1111111111
Ölkə	Türkiyə Respublikası
Poçt indeksi	52770
Şəhər/rayon	İstanbul
Ünvan	Üsküdar, Beylerbeyi mahallesi, Semsi Efendi

Əlaqə vasitələri

Mobil telefon nömrəsi	+(994) 50

Ərizə səlahiyyətli nümayəndə tərəfindən doldurulduqda, həmin səlahiyyətli nümayəndənin şəxsiyyətini təsdiq edən sənədin məlumatları (səlahiyyətli nümayəndənin səlahiyyətlərini təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti ərizəyə əlavə olunmalıdır)

FIN	
Soyadı, adı, atasının adı	HÜSEYİNOVA ÜLVİYYƏ ARİF QIZI
Şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi	
Vəsiqəni verən orqanın adı	Asan 3
Sənədin verilmə tarixi	08.09.2021

Qeyri-rezidentə Azərbaycan Respublikasında gəlir ödəyən şəxs haqqında ümumi məlumat

VÖEN/Adı	9900050571/"CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ
Vergi orqanı	İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi
Qeydiyyat tarixi	18.11.2004

Ödəniləcək gəlir və tutulacaq vergi haqqında məlumat

Gəlirin növü	Dividend

Azərbaycan Respublikasının ərazisindəki fəaliyyətim daimi nümayəndəlik yaratmır

Gəlirin ödənilməsinə əsas verən müqavilə(sənəd) məlumatları

Tarixi	01.09.2026
Nömrəsi	1111111111
İşlərin, xidmətlərin görülməsi dövrü	01.10.2026 - 01.09.2027
Ödənişlərin aparılacağı(aparıldığı) dövr	01.10.2026 - 31.12.2027
Valyutanın kodu	USD
Məbləğ	1 000
Məbləğ (manatla)	1 700
Daxili qanunvericiliyə əsasən tutulmalı olan verginin dərəcəsi (%-lə)	10
Beynəlxalq müqaviləyə əsasən tutulmalı olan verginin dərəcəsi (%-lə)	5

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxaq müqavilənin 10.1 maddəsi nəzərə alınmaqla yuxarıda göstərilən məbləğin ödəmə mənbəyində beynəlxalq müqavilədə nəzərdə tutulmuş vergi dərəcəsi ilə vergiyə cəlb edilməsini xahiş edirəm.

Təsdiq edirəm ki, bu ərizədə göstərilmiş məlumatlar tam doğrudur. Səhv və ya təhrif olunmuş məlumat verdiyim sübut edildiyi təqdirdə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşımağa hazıram.


Sənədlər

Rezidentlik_sertifik... 12 Kilobayt | Muqavile.docx 12 Kilobayt | Etibarname.docx 12 Kilobayt

Bağla

İstifadəçi tərəfindən göndərilən “Qeyri-rezidentin Azərbaycan Respublikasından əldə etdiyi gəlirə ödəmə mənbəyində beynəlxalq müqavilədə nəzərdə tutulmuş azadolma və ya aşağı dərəcənin tətbiq edilməsi haqqında ərizə (DTA 03-Forması)” “Ərizələr” modulundakı

“Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.



Eyni zamanda bu hissədən də **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

